**Auditorların mülki məsuliyyətinin icbari sığortası üzrə baza sığorta tariflərinin müəyyən edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Auditorların mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 avqust tarixli 613 nömrəli Fərmanının 1.4-cü bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Auditorların mülki məsuliyyətinin icbari sığortası üzrə baza sığorta tarifləri aşağıdakı kimi müəyyən edilsin:

1.1. auditor fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün - sığorta məbləğinin 1,0 faizi;

1.2. auditor fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər üçün - sığorta məbləğinin 1,5 faizi.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 28 sentyabr 2007-ci il
№151